# BQXK-yə məxsus avtomobillər Xankəndiyə qayıdıb

**Dinc aksiyanın təşkil olunduğu ərazidən sərbəst keçməklə Laçın istiqamətində gedən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillər geri qayıdıb.**



AZƏRTAC xəbər verir ki, BQXK-yə aid 6 minik avtomobili Xankəndiyə keçib. Ekofəallar həmişəki kimi, ərazidən humanitar məqsədlər üçün istifadəyə mütəmadi şərait yaradıblar.

Bu, bir daha onu göstərir ki, aksiyanın təşkil olunduğu ərazi humanitar məqsədli maşınların keçidi üçün tam açıqdır. Hazırkı vaxtadək aksiyanın təşkil olunduğu ərazidən 57 avtomobil sərbəst keçib.

Qeyd edək ki, Qarabağda ekoloji istismara qarşı ötən il dekabr ayının 12-dən başlayan aksiya 74 gündür davam edir.

Azərbaycan. - 2023.- 24 fevral.- S.5.